“İQTİSADİ İSLAHATLAR”
elmi-analitik jurnal

# KƏND ƏRAZİLƏRİNİN İNKİŞAFINDA AQRAR SAHİBKARLIĞIN SOSİAL MƏSULİYYƏTİNİN BƏZİ ASPEKTLƏRİ

№ 1(6)-2023, səh. 78-85

i.ü.f.d., dosent Natiq MİRZƏYEV,
Lənkəran Dövlət Universiteti

mirzoev.n@mail.ru

# Kənd ərazilərinin inkişafında aqrar sahibkarlığın sosial məsuliyyətinin bəzi aspektləri

i.ü.f.d., dosent Natiq MİRZƏYEV
Lənkəran Dövlət Universiteti

**XÜLASƏ**

Aqrar sahə bütün dünyada ən mühüm iqtisadi sahələrdən biridir. O, demək olar ki, bütün insanları ərzaqla təmin edir. Bununla yanaşı, sahibkarlıq fəaliyyəti və aqrar sektorun birləşməsi insanları mümkün olan bir çox iş yerləri ilə təmin edir. Aqrar sahibkarlığın sosial məsuliyyətli olması kənd ərazilərinin inkişafına öz təsirini göstərir. Məqalədə aqrar sahədə sosial sahibkarlığın kənd ərazisinin inkişafının idarə edilməsi vasitəsi kimi istifadə imkanlarından bəhs edilir. Kənd ərazilərinin inkişafında dövlətin maraqları və aqrar sahibkarlığın sosial məsuliyyəti, aqrar sahibkarlığın sosial məsuliyyətinə təsir edən mühit amilləri araşdırılmışdır. Eyni zamanda, aqrar sahədə sosial sahibkarlığın innovasiya fəaliyyətinin inkişaf etdirilməsi və onun kənd ərazilərinin inkişafında əhəmiyyəti qeyd olunmuşdur. Nəticə etibarilə aqrar sahədə sosial yönümlü sahibkarlığın inkişaf etdirilməsi, insanların kənddə yaşamağa cəlb edilməsinə və keyfiyyətli kənd həyatının təmin edilməsinə öz töhfəsini vermişdir.

***Açar sözlər**: aqrar sahibkarlıq, kənd əraziləri, mühit amilləri, innovasiya, sosial məsuliyyət, sosial sahibkarlıq.*

***JEL kodu:** Q10; L31; M14; P25*

## GİRİŞ

Sosial sahibkarlıq cəmiyyətin üzləşdiyi problemlərin həllinə və ya yumşaldılmasına yönəlmiş xeyriyyəçilik və sahibkarlıq fəaliyyətlərinə aiddir.

Sosial sahibkarlar dedikdə, vətəndaşların müəyyən kateqoriyalarının mənafeyi çərçivəsində məhsul və xidmətlər istehsal edən və ya onlar üçün iş yerləri yaradan insanlar başa düşülür. Məzmun baxımından bunlar daha çox əlavə təhsil, sosial xidmətlərin göstərilməsi, eləcə də, səhiyyə, mədəniyyət və idman sahəsində olan layihələrdir.

Sosial məsuliyyət müxtəlif sahələrdə formalaşır. Sosial məsuliyyətin formalaşmasına dair çox sayda ədəbiyyatlar sənaye sahəsinə və nadir hallarda isə aqrar sahibkarlıq kimi sahəyə həsr edilmişdir.

Müasir dünyada sahibkarlığın sosial məsuliyyətinin formalaşması və inkişafı getdikcə aktual və populyar mövzuya çevrilir. Sahibkarlığın sosial məsuliyyəti Azərbaycan reallığında nisbətən yeni bir iqtisadi kateqoriyadır, onun inkişafı bazar münasibətlərinin institutsionallaşması və artan rəqabət şəraitində nəzərə çarpır. Sahibkarlığın sosial məsuliyyəti dəyişən makroiqtisadi və sosial şəraitə uyğun olaraq tədricən yeni formalar alır. Sosial məsuliyyətin formalaşması ilə bağlı problemlər bu gün xüsusilə, aqrar sahədə sahibkarlığın inkişafında və çiçəklənməsində mühüm əhəmiyyət kəsb edir.

Sahibkarlığın sosial məsuliyyəti məsələlərini Q.Bouen, K.Devis, K.Uolton, M.Fridman, R.Askerman, V.S.Frederik, D.Vud, J.Post, L.Preston, A.Karroll, S.Hilton, D.Qibbons, F.Kotler və s. alimlər araşdırmışlar. Aqrar sahibkarlığın sosioloji tədqiqat obyekti kimi nəzərə alınaraq tədqiq olunması M.Qranovetter, E.P.Thompson, J.K.Skott və digər bu kimi alimlər tərəfindən həyata keçirilmişdir.

Azərbaycan şəraitində aqrar sahədə sahibkarlığın sosial məsuliyyəti və onun kənd yerlərinin inkişafına təsiri məsələlərinin araşdırılmasına ehtiyac vardır.

## KƏND ƏRAZİLƏRİNİN İNKİŞAFINDA DÖVLƏTİN MARAQLARI VƏ AQRAR SAHİBKARLIĞIN SOSİAL MƏSULİYYƏTİ

Kənd yerlərinin inkişaf etdirilməsi dövlətin fəaliyyətinin ən mühüm strateji istiqamətlərindən biridir. Burada həm sosial-iqtisadi, həm də geosiyasi məsələlər eyni (bərabər) səviyyədə əhəmiyyət kəsb edirlər. Dövlətin sosial-iqtisadi maraqları kənd əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılmasını, onun səmərəli məşğulluğunun və ən azı minimum sadə demoqrafik təkrar istehsalın təmin edilməsini əhatə edir. Geosiyasi vəzifələr əhalinin kənddən həddən artıq köçməsinin, sərhədyanı ərazilərdə, xüsusən, mövcud əraziyə, orada yaşayan əhalinin lazımi nəzarətini həyata keçirməyə imkan verən ərazilərdə əhalinin sayının azalmasının qarşısını almaqdan ibarətdir. Hər iki vəzifə ölkə daxilində iş yerlərinin vahid bölgüsünü tələb edir.

Sosial məsuliyyət müəssisənin davamlı inkişafı ilə qarşılıqlı əlaqədədir. Amma kənd təsərrüfatı müəssisələri üçün “dayanıqlı inkişaf” anlayışına demək olar ki, rast gəlinmir. “Çox vaxt davamlı inkişaf kateqoriyası kənd yerləri və aqrar sahədə fəaliyyət göstərən müəssisələrdə fərdi şəkildə özünü göstərir. Müəssisə səviyyəsində bu əksər hallarda korporativ sosial məsuliyyət sistemi vasitəsilə baş verir” [4]

Yalnız aqroholdinqləri stabil inkişaf edən müəssisələr adlandırmaq olar. Çünki, onlar böyük gəlirlər əldə edir və özünün kommersiya fəaliyyətinin strateji istiqamətlərini inkişaf etdirə bilirlər. Kiçik təsərrüfatlar və fermer təsərrüfatları belə imkanlara malik deyillər.

Kənd yerlərinin sosial məsuliyyətinin əsas istiqaməti təkcə dövlətin dəstəyi deyil, həm də kənd zəhmətkeşləri tərəfindən dəstəklənməsidir. Daha çox bu dəstəyi aqroholdinqlər həyata keçirir. Eyni zamanda, bu dəstək kifayət qədər uğurla inkişaf edən yerli fermer təsərrüfatları tərəfindən də həyata keçirilə bilər. “İnfrastrukturun inkişaf etdirilməsi müasir kəndin əsasıdır. Məhz bu istiqamətdə sponsorlardan dəstək lazımdır” [2].

Həmçinin, aqroholdinqlər öz sosial məsuliyyətlərini işçilərin əmək şəraitinin yaxşılaşdırılması istiqamətində ətraf mühitin mühafizəsi və müdafiəsi fəaliyyətinə yönəldirlər. Sosial məsuliyyət prinsiplərini tətbiq etməklə, müəssisənin bazar dəyəri artmağa başlayır, çünki belə olan təqdirdə investorlar onları etibarlı və ciddi tərəfdaş kimi qəbul edirlər.

## AQRAR SAHƏDƏ SAHİBKARLIĞIN SOSİAL MƏSULİYYƏTLİNİN MƏQSƏDİ

Son illərdə iqtisadiyyatın bütün sahələrində biznesin sosial məsuliyyəti prinsiplərinin populyarlaşması müşahidə olunur. Aqrar sahibkarlığın problemləri və onun kəndin sosial inkişafına təsiri dövlətin sosial siyasətinin çox əhəmiyyətli tərkib hissəsidir. Qeyd etmək lazımdır ki, bu sahədə biliklər və informasiyalar azdır. Aqrar sahədə sahibkarlığın sosial məsuliyyətinin formalaşdırılması amillərinin müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir.

Məlum olduğu kimi, aqrar sahibkarlığın sosial məsuliyyəti - kəndin sosial problemlərini həll etmək yolu ilə öz təsərrüfatını dəstəkləməyə, eləcə də, öz işçilərinə və kəndin sakinlərinə sosial dəstək verməyə yönəldilmiş aqrar müəssisələrin məsuliyyətidir.

Aqrar sahədə sahibkarlığın sosial məsuliyyətinin əsas məqsədi məhsuldar qüvvələrin elmi-texniki inkişaf səviyyəsinin, işçilərin təkrar istehsalı sahəsində idarəetmənin ən səmərəli üsullarından istifadə etməklə cəmiyyətin mədəni və mənəvi həyat səviyyəsinin, əmək məhsuldarlığının, əmək ehtiyatlarının təhsil və ixtisas səviyyəsinin yüksəldilməsidir. Aqrar sahədə sahibkarlıq subyektlərinin sosial məsuliyyətinin əsas məqsədləri aşağıdakılardır:

- ictimai münasibətlərin uyğunlaşdırılması, əhalinin ayrı-ayrı qruplarının maraq və ehtiyaclarının cəmiyyətin uzunmüddətli maraqları ilə üst-üstə düşməsi, ictimai-siyasi sistemin stabilləşməsi;
- əhalinin maddi rifahının təmin edilməsi üçün şəraitin yaradılması, ictimai istehsalda iştirak üçün iqtisadi stimulların formalaşdırılması, normal həyat səviyyəsinə nail olmaq üçün sosial imkanların bərabərliyinin təmin edilməsi;
- bütün vətəndaşların sosial müdafiəsinin və onların dövlət tərəfindən təmin edilən əsas sosial-iqtisadi hüquqlarının, o cümlədən, əhalinin aztəminatlı qruplarına dəstəyin təmin edilməsi;

- cəmiyyətdə rasional məşğulluğun təmin edilməsi;
- cəmiyyətdə kriminallaşma səviyyəsinin azaldılması;
- təhsil, səhiyyə, elm, mədəniyyət, mənzil-kommunal təsərrüfatı və s. kimi sosial sahələrin kompleks inkişafı;
- ölkənin ekoloji təhlükəsizliyinin təmin edilməsi.

## AQRAR SAHİBKARLIĞIN SOSİAL MƏSULİYYƏTİNİN MÜHİT AMİLLƏRİ VƏ ONA TƏSİRİ

Sosial məsuliyyət amilləri - cəmiyyətin sosial məsələlərinin həllində müəssisənin fəaliyyətinə və roluna təsir edən xarici və daxili şəraitlərin məcmusudur. Ümumiyyətlə, aqrar sahibkarlığın sosial məsuliyyəti xarici və daxili mühit səviyyəsində həyata keçirilir. Aqrar sahibkarlığın sosial məsuliyyətinin daxili mühitinə əməyin təhlükəsizliyinin təmin olunması, əmək haqqının stabilliyi, vergilərin ödənilməsi, işçilərin əlavə olaraq tibbi və sosial sığortası, təlim və təkmilləşdirmə proqramları vasitəsilə insan resurslarının inkişaf etdirilməsi, işçilərə yardım edilməsi daxildir. Daxili mühit amillərinə isə sponsorluq və korporativ xeyriyyəçilik, ətraf mühitin mühafizəsinin təşviqi, yerli cəmiyyətlər və yerli hakimiyyət orqanları ilə qarşılıqlı əlaqə, böhran vəziyyətlərinin həllində iştirak etmək istəyi, mal və xidmətlərin istehlakçıları qarşısında məsuliyyət (keyfiyyətli malların istehsalı) aiddir.

Aqrar sahibkarlığın sosial məsuliyyəti sosial proqramların aşağıdakı növləri vasitəsilə həyata keçirilə bilər: müəssisə və təşkilatların öz proqramları; müəssisələrin yerli, regional və hökumət orqanları ilə tərəfdaşlıq proqramları; aqrar sahibkarlıq subyektləri ilə ictimai təşkilatlar və peşəkar birliklər arasında əməkdaşlıq proqramları; media (kütləvi informasiya vasitələri) ilə informasiya əməkdaşlığı proqramları.

Göstərilən sosial proqramlar xeyriyyəçilik ianələri və sponsorların köməyi, müəssisə və təşkilatlarda fəaliyyət göstərən işçilərin sosial proqramlardakı könüllü iştirakı, korporativ sponsorluq, korporativ fond, pul qrantları, sosial investisiyalar və sosial marketinq kimi alətlər vasitəsilə həyata keçirilir [3].

Sosial məsuliyyətin formalaşması amillərini üç qrupda qruplaşdırmaq olar: makrosəviyyəli amillər, mikrosəviyyəli amillər və kəndli (fermer) təsərrüfatının xüsusiyyətləri ilə bağlı olan amillər. Bu faktorlar müəssisələrin sosial məsuliyyətinin formalaşmasına müxtəlif dərəcədə təsir göstərir.

Kənd yerlərində ən vacib faktorlardan biri də ekoloji faktordur. "Ekoloji səmərəlilik təbii mühitin qorunması, təbii sərvətlərdən istifadə səviyyəsi, ekoloji cəhətdən təmizliyin artması və istehsal olunan məhsulların təbii resurs tutumluluğunun azalması, məhsulların keyfiyyətinin və yaşayış mühitinin yaxşılaşdırılması ilə xarakterizə olunur. Ətraf mühitin səmərəliliyinin meyarı ətraf mühitin deqradasiyasının qarşısının alınması, onun yaxşılaşdırılması, istehsalın ekoloji cəhətdən təmizliyini, məhsul keyfiyyətini artırmaqdır" [1, s.53]. Məhz ekoloji problemlərin həlli və bu istiqamətdə sabitliyin təmin olunmasında sahibkarlıq subyektlərinin sosial məsuliyyətinin artırılması tələb olunur.

**Şəkil 1. Sosial məsuliyyətin formalaşmasına təsir edən amillər**

**Sosial məsuliyyətin formalaşması milləri** → **Aqrar sahibkarlığın sosial məsuliyyəti** → **Müəssisələrdə sosial məsuliyyətin nəticələri**

**Sosial məsuliyyətin formalaşması milləri**

**Makrosəviyəli amillər:**

regional hakimiyyət və yerli özünüidarəetmə orqanlarının siyasəti;

normativ hüquqi bazanın inkişaf səviyyəsi;

kənd  təsərrüfatının iqtisadi vəziyyəti və inkişafı.

**Makrosəviyəli amillər:**

kənddə infrastrukturun inkişafı;

adət-ənənələr və kəndin metaliteti;

aqrar müəssisələrin rəhbərinin mənəvi dəyərləri;

aqrar müəssisələrin maliyyə vəziyyəti;

kənd ərazilərinin kadr siyasəti;

aqrar müəssisələrin imic siyasəti.

**Kəndli (fermer) təsərrüfatının xüsusiyyətləri ilə bağlı olan amillər:**

İşçilərin tərkibi və təhsil səviyyəsi;

heyətin saxlanması və inkişafına olan tələblər;

rəhbərliyin xüsusiyyətləri və üslubu;

əmək şəraiti;

heyətə təsir üsulları.

**Aqrar sahibkarlığın sosial məsuliyyəti**

**Xarici sosial məsuliyyət:**

sponsorluq və xeyriyyəçilik;

ətraf mühitin müdafiənin təşviqi;

yerli icma və yerli hakimiyyət ilə qarşılıqlı əlaqə;

hazırlıq böhran hallarında iştirak etməyə hazır olmaq;

mal və xidmətlərin istehlakçıları qarşısında məsuliyyət (keyfiyyətli mal istehsalı.

**Daxili sosial məsuliyyət:**

əməyin təhlükəsizliyinin təmin edilməsi;

hər bir işçi üçün sabit əmək haqqının saxlanması;

vergilərin ödənilməsi; işçilərin əlavə sosial və tibbi sığortasının təmin edilməsi;

insan resurslarının inkişafı (kadrların hazırlanması və təkmilləşdirilməsi);

kritik vəziyyətlərdə işçilərə kömək.

**Müəssisələrdə sosial məsuliyyətin nəticələri**

şirkətin imicinin yaxşılaşdırılması;

daxili korporativ mədəniyyətin təkmilləşdirilməsi;

yeni müştərilərin cəlb edilməsi;

məhsulların satışının artması;

dəyərli işçilərin müəssisədə saxlanılması;

kəndin sosial inkişafında müəssisənin rolunun genişləndirilməsi;

kəndin sosial infrastrukturunun qorunması;

kənd icmasının sakinlərinin məmnunluğu (sadiqliyi).

## AQRAR SAHƏDƏ SOSİAL SAHİBKARLIĞIN İNNOVATİV FƏALİYYƏTİNİN İNKİŞAF ETDİRİLMƏSİ

Sosial sahibkarlıq Azərbaycan iqtisadiyyatı üçün yeni bir sahədir. Onun innovasiyalı xarakteri demək olar ki, mənfəət əldə etməyin yeganə şərtidir. İnnovasiya fəaliyyətinə müəssisənin problemlərinin müəyyən edilməsi; innovasiya prosesinin həyata keçirilməsi; innovasiya fəaliyyətinin təşkili daxildir. Bu zaman təşkilatların fəaliyyət istiqamətini və onun sosial - iqtisadi əhəmiyyətini nəzərə almaq lazımdır. Aqrar sahədə sosial sahibkarlığın xüsusi dövlət institutu kimi formalaşması innovasiyalı fəaliyyətin daha fəal inkişafını nəzərdə tutur.

Kənd təsərrüfatında sahibkarlar tərəfindən innovasiyalardan istifadə edilməsində aşağıdakı maneələr mövcuddur:

1. Yüksək risk. Təbiətinə görə sahibkarlıq fəaliyyəti böyük risk ilə bağlıdır. Yeniliklərin tətbiq edilməsi riskin səviyyəsini daha da artırır.
2. İdeyanın yaranmasından son məhsula qədər uzun müddətin olması. İnnovasiya sahibkarlığı istiqamətində ekspertlərin fikrincə, bu proses üç-beş ilə olan müddəti əhatə edir.
3. Kompleks dövlət dəstəyinin olmaması.
4. Maliyyə xərcləri. Pul çatışmazlığı innovasiyaların tətbiqində əsas maneədir və maliyyələşdirmə mənbəyi (investor) tapmaq da çətindir. Bildiyiniz kimi, ilkin mərhələdə daimi maliyyə qoyuluşlarının olmaması durğunluğa və itkilərə səbəb olur [6, s.457].

Belə şəraitdə sahibkarlar özləri təşəbbüs göstərməlidirlər. Qeyd etmək lazımdır ki, uğurun açarı sahibkarların özlərinin motivasiyasıdır və onların innovasiya aktivliyi səviyyəsidir.

İnnovasiya aktivliyi dedikdə, ətraf mühitin yeni bir şəkildə qəbul edilməsi, problemin müəyyənləşdirilməsi və məqsədlərin qoyuluşu, həmçinin, bütün intellektual, yaradıcılıq imkanlarından istifadə edərək bu problemlərin həll edilməsi bacarığı başa düşülür. Belə olan halda innovasiya iqtisadi cəhətdən yeni əmtəə və xidmətlərin təklif olunması kimi təqdim edilə bilər.

N.Z.Safiullin və M.D.Fayzrahmanova görə isə aqrar sahədə sosial sahibkarlığın innovasiya fəallığının artmasına aşağıdakı bir sıra amillər mane olur:

- ideyanın mümkün yanlışlığı səbəbindən yaradıcılıq prosesinin nəticələrinin gözlənilməzliyi avanslaşdırılmış kapitalı itirmək riskinin artmasına səbəb olur; innovasiyanın yaranmasına bazarın reaksiyasını proqnozlaşdırmaq çətinləşir;
- innovasiya fəaliyyətində avanslaşdırılmış maliyyə vəsaitlərindən tutmuş innovasiyalardan əldə olunmuş kommersiya vəsaitlərinin ödənilməsində gecikmələr müşahidə olunur;
- innovasiya fəaliyyətinin nəticəsinin yüksək səviyyədə qeyri-müəyyənliyi maliyyə vəsaitlərinin geri qaytarılmasına zəmanət vermir;
- dövlət tərəfindən maliyyə dəstəyinin çatışmazlığı;
- yeni texnologiyalar haqqında informasiyanın olmaması;
- yeniliklərin təşviqi ilə bağlı təsəvvür və qabiliyyətin olmaması [5, s.31];
- sadə istehlakçılar tərəfindən sosial yönümlü müəssisələrin məhsul və xidmətlərinə üstünlük verilməməsi.

İnnovasiya fəaliyyəti cəmiyyətin yeni ehtiyaclarının təmin edilməsinə can atması ilə xarakterizə olunur və bu kimi fəaliyyətlərə qadir olan insanların mövcudluğundan asılıdır. Aqrar sahədə innovasiyalı sahibkarlığın həyata keçirilməsi zamanı sosial sahibkarlıq subyektləri dövlət tərəfindən dəstək və inkişaf proqramlarının olmaması ilə əlaqədar olaraq çoxlu sayda problemlərlə üzləşirlər. "İqtisadiyyatın digər sahələrində olduğu kimi aqrar sahədə də dövlət-özəl tərəfdaşlığı formalarından biri kimi innovativ infrastrukturun (klasterlər, inkubatorlar, texnoparklar, texnologiya transferi ofisləri və s.) yaradılması bu sahədə sahibkarlığın inkişaf etdirilməsinə mühüm dəstək verir. Azərbaycanda sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması istiqamətində atılan addımlar, aparılan islahatlar və dövlət dəstəyi tədbirləri nəticəsində özəl sektor iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilib" [7]. Belə dəstək sahibkarlıq fəaliyyətinin başlanğıc mərhələsində olduğu kimi, aktyiv inkişaf mərhələsində də vacibdir.

## NƏTİCƏ

Kənd yerləri, şəhər yerləri kimi, təkcə yaşayış yeri deyil, həm də təsərrüfat obyektlərinin yerləşdiyi ərazidir. Buna görə də o, yaşayış yeri kimi yeni iqtisadi fəaliyyət növləri üçün də cəlbedici olmalıdır. Aqrar sahibkarlıq kənd ərazilərinin sosial-iqtisadi inkişafına böyük töhfə verir.

Aqrar sahədə sahibkarlığın sosial məsuliyyətinin formalaşması amillərinin təhlili cəmiyyətin sosial məsələlərinin həllində müəssisənin roluna təsir edən və vəhdətdə olan xarici və daxili şərtlərin olduğunu göstərir. Bu amillərin nəzərə alınması çox önəmlidir. Aqrar müəssisələrdə sosial məsuliyyətin inkişafında dövlətin stimullaşdırıcı siyasəti mühüm rol oynayır. Bu istiqamətdə əsas rola işəgötürənlərin sosial məsuliyyətinin artırılmasına yönəlmiş müxtəlif tədbirləri həyata keçirən regional idarəetmə orqanları malikdirlər.

Kənddə sahibkarların kəndin sosial-mədəni həyatına fəal cəlb edilməsi və biznesin sosial-mühəndislik infrastrukturundan daha çox asılılığı kənddə biznesin sosial məsuliyyətinin yüksək səviyyədə formalaşmasına təsir göstərir. Bədən tərbiyəsi və idmanın inkişafına, uşaqların təhsilinə, kənddə mədəni-kütləvi tədbirlərin keçirilməsinə sponsorluq etməklə, yolların və sahibkarlıq obyektlərinə bitişik ərazilərin normal vəziyyətdə saxlanılması tədbirlərinin maliyyələşdirilməsində iştirak etməklə, aqrar sahibkarlıq kənd yerlərində həyat keyfiyyətinin və yaşayışın cəlbediciliyinin yaxşılaşdırılmasına mühüm töhfə verir.

Sahibkarlıq subyektləri ilə dövlət arasında qarşılıqlı əlaqənin formalaşması və gücləndirilməsi vacib məsələlərdəndir. Bu da öz növbəsində kənddə sahibkarların sosial məsuliyyətini artıracaq və kəndin inkişafına öz müsbət təsirini göstərəcəkdir.

## ƏDƏBİYYAT

1. Mirzəyev N.S. Kənd təsərrüfatında sahibkarlığın iqtisadi səmərəliliyinin meyarları və göstəriciləri. "Kənd Təsərrüfatının İqtisadiyyatı" elmi-praktik jurnal. BAKI – 2021 - № 2 (36) – səh. 51 – 57
https://agroeconomics.az/az/article/51/kend-teserrufatinda-sahibkarligin-iqtisadi-semerel/

2. Гришина Я.С. Публично-правовые средства государственной поддержки социальных предприятий малого и среднего бизнеса // Вестник Саратовского государственного социально -экономического университета. 2012. № 5.С. 102 - 106.
https://lib.usue.ru/bibliograficheskie-resursy/23-bul2/82-bul446

3. Гурьянова Н. Социальная ответственность агробизнеса и элементы ее реализации / Н. Гурьянова, Н. Бекренова // Международный сельскохозяйственный журнал. – М.,2015. - № 3. – С. 16-19.
https://cyberleninka.ru/article/n/sotsialnaya-otvetstvennost-agrobiznesa-i-elementy-ee-realizatsii

4. Мочалова Я.В. Механизм повышения социально-экономической эффективности малого предпринимательства в России // Теория и практика общественного развития. – 2014.–№1.–С.409-411;[Электронный ресурс].
http://cyberleninka.ru/article/n/mehanizm-povysheniya-sotsialno-ekonomicheskoy-effektivnosti-malogo-predprinimatelstva-v-rossii

5. Сафиуллин Н.З., Файзрахманов М.Д. Инновационная активность предприятий в условиях «Новой экономики». Бюллетень Казанского Государственного Аграрного Университета. – 2007. - № 2(6) – стр.29–32
https://vestnik-kazgau.com/

6. Тагирова, А.В. Использование инноваций в бизнесе индивидуальными предпринимателями//Культура, наука, образование: проблемы и перспективы: материалы VI международной научно-практической конференции. Нижневартовск, 2017. С. 455–458.

http://konference.nvsu.ru/konffiles/320/Kultura,%20nauka_konf_chast1.pdf

7. Mirzayev N.S. Development of innovative agrarian entrepreneurship based on public-private partnership in Azerbaijan. Вестник Белорусской Государственной Сельскохозяйственной Академии № 4 2022. Горки, Беларусь - стр. 29-35 https://cyberleninka.ru/article/n/development-of-innovative-agrarian-entrepreneurship-based-on-public-private-partnership-in-azerbaijan

## НЕКОТОРЫЕ АСПЕКТЫ СОЦИАЛЬНОЙ ОТВЕТСТВЕННОСТИ АГРАРНОГО ПРЕДПРИНИМАТЕЛЬСТВА В РАЗВИТИИ СЕЛЬСКИХ ТЕРРИТОРИЙ

Натиг МИРЗОЕВ

### РЕЗЮМЕ

Социальная ответственность аграрного предпринимательства показывает свое влияние на развитие сельских территорий. В статье говорится о возможностях использования социального предпринимательства в аграрной сфере как средства управления развитием сельской местности. Исследованы интересы государства и социальная ответственность аграрного предпринимательства в развитии сельских территорий, экологические факторы, влияющие на социальную ответственность аграрного предпринимательства. А также отмечено развитие инновационной деятельности социального предпринимательства в аграрной сфере и его значение в развитии сельских территорий. В результате показано, что развитие социально ориентированного предпринимательства в аграрной сфере способствует привлечению населения к проживанию в селе и обеспечению качественной сельской жизни.

***Ключевые слова***: *аграрное предпринимательство, сельская местность, экологические факторы, инновации, социальная ответственность, социальное предпринимательство*

## SOME ASPECTS OF THE SOCIAL RESPONSIBILITY OF AGRICULTURAL ENTREPRENEURSHIP IN THE DEVELOPMENT OF RURAL AREAS

Natig MIRZAYEV

### SUMMARY

The social responsibility of agricultural entrepreneurship shows its impact on the development of rural areas. The article talks about the possibilities of using social entrepreneurship in the agricultural sector as a means of managing the development of rural areas. The interests of the state and the social responsibility of agricultural entrepreneurship in the development of rural areas, environmental factors influencing the social responsibility of agricultural entrepreneurship have been studied. And also noted the development of innovative activities of social entrepreneurship in the agricultural sector and its importance in the development of rural areas. As a result, it is shown that the development of socially oriented entrepreneurship in the agricultural sector helps to attract the population to live in the village and ensure a quality rural life.

***Key words:*** *agrarian entrepreneurship, rural areas, environmental factors, innovations, social responsibility, social entrepreneurship*

Məqalə redaksiyaya daxil olub: 07.03.2023
Təkrar işlənməyə göndərilib: 28.03.2023
Çapa qəbul olunub:17.04.2023